# İQTİSADİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİR EDƏN BEYNƏLXALQ ÇƏRÇİVƏ

**Elşən Bağırzadə**

*iqtisad üzrə fəlsəfə doktoru*

**Bakı - 2015**

# GİRİŞ əvəzi

**Dünya demokratik olmayan beynəlxalq qurumlar əli ilə idarə edilir.**

***Jose Saramago***

*Portuqaliyalı yazıçı,*

*ədəbiyyat üzrə Nobel mükafatı laureatı*

# BEYNƏLXALQ İQTİSADİ ƏMƏKDAŞLIQ

- Sürətlə qloballaşan dünyada ölkələr də daha sürətlə bir-biri ilə iqtisadi, maliyyə və ticarət münasibətlərinə daxil olurlar.
- Genişlənən bu münasibətlər, ölkələrin üzv olduğu başlıca beynəlxalq qurumların tətbiq etdiyi qaydalar və idarə etdiyi siyasətlər, o ölkələrin tətbiq edəcəkləri iqtisadi siyasətlərə də mühüm dərəcədə təsir göstərir.
  - Məsələn, ***Beynəlxalq Valyuta Fondu (International Monetary Fund)*** üzvü olan bir ölkənin bu qurumun dəstəyi ilə stabilləşmə proqramı tətbqi etməsi, yalnız onun təsdiq etdiyi bir proqram çərçivəsində ola bilər.
  - Həmçinin, ***Dünya Bankından (The Wordl Bank)*** bir layihə üçün kredit almaq istəyən ölkə bu bankın tender qaydalarına əməl etməlidir.
  - Xarici ticarət siyasətində dəyişiklik etmək istəyən ***Dünya Ticarət Təşkilatı (World Trade Organization -WTO)*** üzvü bir ölkənin bu qurumun qoyduğu qaydalara zidd siyasət həyata keçirməsi mümkün deyildir.

# BEYNƏLXALQ İQTİSADİ ƏMƏKDAŞLIQ

- Beynəlxalq iqtisadi və maliyyə qurumları ölkələrin və ya regionların müxtəlif iqtisadi və maliyyə problemlərini həll etmək məqsədilə üzvlərinin iqtisadi güclərini bir yerə toplamaq üçün qurulmuşdur.
- Beynəlxalq iqtisadi və maliyyə qurumları ***dünya miqyasında, regional və müəyyən oxşar xüsusiyyətlərə malik ölkələri əhatə edəcək formalarda*** təşkilatlanırlar.
  - Birinci qrupa nümunə: BVF (IMF), Dünya Bankı, DTT (WTO), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD).
  - İkinci qrupa nümunə: Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Afrika İnkişaf Bankı, İnter-Amerikan İnkişaf Bankı, Avropa İnvestisiya Bankı.
  - Üçüncü qrupa nümunə: İslam İnkişaf Bankı.

# BEYNƏLXALQ İQTİSADİ ƏMƏKDAŞLIQ

- Beynəlxalq qurumlarda üzv ölkələri əsasən o ölkələrin xəzinələri təmsil edir.
- Beynəlxalq qurumlar arasında iqtisadi siyasətlə ən çox əlaqəli olanları ***Beynəlxalq Valyuta Fondu***, ***Dünya Bankı Qrupu*** və ***Dünya Ticarət Təşkilatı***dır.
- Beynəlxalq iqtisadi əməkdaşlığın ən yaxşı nümunəsi BVF və  Dünya Bankının qurulmasını təmin edən, DTT-nin qurulmasının da əsasını qoyan və 1-22 iyul 1944-cü ildə keçirilən ***Bretton Woods Konfransı***dır.

# İNKİŞAF ETMİŞ İQTİSADİYYATLARLA MÜNASİBƏTLƏRİN TƏSİRİ

- BVF-nun hər il nəşr etdiyi "***Dünya İqtisadi Mənzərəsi***" (World Economic Outlook) hesabatına görə dünyada 35 ölkə inkişaf etmiş iqtisadiyyatdır.
  - ***Ən inkişaf etmiş iqtisadiyyatlar (G-7)***: ABŞ, Yaponiya, Almaniya, Fransa, İngiltərə, Kanada, İtaliya.
  - ***Avro Bölgəsi iqtisadiyyatları (17 ölkə)***: Avstriya, Belçika, Cənubi Kipr, Estoniya, Fransa, Almaniya, Yunanıstan, İrlandiya, İtaliya, Lüksemburq, Malta, Niderland, Portuqaliya, Slovakiya, Sloveniya, İspaniya.
  - ***Yeni sənayeləşmiş Asiya iqtisadiyyatları (4 ölkə)***: Honq-Konq, Sinqapur, Cənubi Koreya, Tayvan.
  - ***Digər inkişaf etmiş iqtisadiyyatlar (10 ölkə)***: Avstraliya, Çexiya, Danimarka, İslandiya, İsrail, Yeni Zellandiya, Norveç, San-Marino, İsveç və İsveçrə.

# İNKİŞAF ETMİŞ İQTİSADİYYATLARLA MÜNASİBƏTLƏRİN TƏSİRİ

- İnkişaf etmiş iqtisadiyyatlar digər iqtisadiyyatlar üçün həm ***ixrac***, həm də ***yüksək texnologiyalara əsaslanan sənaye məhsullarının idxalı*** baxımından əhəmiyyətlidir.
- İnkişaf etmiş iqtisadiyyatlarda əsasən yüksək yığım artıqlığı olduğundan digər iqtisadiyyatlar bunlardan ***maliyyə resursları təmin edirlər***. Yəni bu ölkələrdən borclanırlar.
- İnkişaf etmiş iqtisadiyyatlardakı kapital digər iqtisadiyyatlara ***birbaşa xarici investisiya*** formasında da axır.
- Bütün bu əlaqələr digər ölkələri bu əlaqələri tənzimləməyə imkan verən iqtisadi siyasət yürütməyə məcbur edir.

# İNKİŞAF ETMİŞ İQTİSADİYYATLARLA MÜNASİBƏTLƏRİN TƏSİRİ

- Son dövrlər kapital axınlarının qlobal səviyyədə sərbəstləşdirilməsi ilə birlikdə xüsusilə inkişaf etmiş ölkələrdə yığılmış artıq fondlar inkişaf etməkdə olan ölkələrə yönəlmiş və bu ölkələrdə bəzi ***qeyri-tarazlıqlar doğurmuşdur***.
  - Məsələn, Braziliya, ölkəsinə qısamüddətli borc formasında (***isti pul***) gələn xarici kapitalın ölkədən çıxması ilə yaratdığı problemləri aradan qaldırmaq üçün xarici kapital çıxışlarına vergi qoymağa (***Tobin vergisi***) məcbur qalmışdır.
  - Ölkəyə çoxlu miqdarda valyuta daxil olması o ölkənin pul vahidinin güclənməsinə və xarici ticarət tarazlığının pozulmasına səbəb ola bilir. Bu halda ölkə istər istəməz buna uyğun bir pul, ya da maliyyə siyasəti yürütməyə məcbur qalır.

# YÜKSƏLƏN BAZARLAR VƏ İNKİŞAF ETMƏKDƏ OLAN İQTİSADİYYATLAR VƏ İQTİSADİ ƏLAQƏLƏR

- BVF-nin qeyd olunan təsnifatına uyğun olaraq ***inkişaf etməkdə olan ölkələr qrupunda 151 ölkə*** vardır.
- Bunlar arasında ən əhəmiyyətli alt qrup ***yüksələn bazar iqtisadiyyatları (emerging markets)*** qrupudur.
- Bu qrup müxtəlif qurumlara görə 20 ilə 40 arasında dəyişən ölkədən ibarətdir və bir müddət sonra inkişaf etmiş ölkələr qrupuna daxil olmaya namizəd ölkələrdir.
- Bunlar arasında ən mühümləri Çin, Rusiya, Braziliya, Hindistan, Cənubi Afrika (***bu beşinə BRICS ölkələri deyilir***), Meksika, Türkiyə, Argentina kimi ölkələrdir.
- Bu ölkələr ilə olan iqtisadi əlaqələr əsasən ticarəti əhatə edir və iqtisadi siyasətə daha çox dolayı təsir göstərir.

# İQTİSADİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİR EDƏN BEYNƏLXALQ QURUMLAR

- **Beynəlxalq Valyuta Fondu (BVF)**
  - BVF ABŞ-ın New Hampshire əyalətinin ***Bretton Woods*** şəhərində 1-22 iyun 1944-cü ildə toplanan 45 ölkənin təsis sazişini imzaladığı 27 dekabr 1945-ci ildə qurulmuş və 1 mart 1947-ci ildən maliyyə əməliyyatlarına başlamışdır.
  - ***BVF-nun əsas məqsədi***, beynəlxalq maliyyə əməkdaşlığının inkişaf etdirilməsini təmin etmək, beynəlxalq ticarətin tarazlı şəkildə inkişaf etməsinə kömək etmək, çoxtərəfli ödəmələr sisteminin qurulmasına dəstək vermək, tədiyyə balansında problemlər yaşayan üzv ölkələrə zəruri tədbirləri görmək şərti ilə yetərli qədər maddi dəstək göstərmək, üzv ölkələrin tədiyyə balansı problemlərinin miqyasını və müddətini azaltmaqdır.

# İQTİSADİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİR EDƏN BEYNƏLXALQ QURUMLAR

- BVF-nin üzvlərinin sayı 188-dir.
- 188 ölkənin BVF-da bir növ kapital payı kimi qəbul edilən kvotaları vardır.
- ***Kvota*** kapitalda iştirak payı olmaqla yanaşı, həmçinin də bir ölkənin BVF-dakı səsvermə gücünü müəyyən edir.
- Kvota üzv ölkənin BVF-dan əldə edəcəyi yardımın miqdarını da müəyyən edir.
- BVF-da hər ölkənin 250 ədəd ***sabit səs sayı*** və kvotasına bağlı olaraq müəyyən edilən ***dəyişən səs sayı*** vardır.
- Dəyişən səs sayı ölkə kvotasının 100000-ə bölünməsi yolu ilə əldə edilir.
- Bir sözlə ***üzv ölkənin BVF-da səs sayı*** aşağıdakı yolla hesablanır:
  - Səs sayı = Sabit səs sayı + Dəyişən səs sayı
  - Səs sayı = 250 + (Kvota / 100000)

# İQTİSADİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİR EDƏN BEYNƏLXALQ QURUMLAR

– BVF-nun təşkilatlanma forması səhmdar cəmiyyətlərə bənzər formadadır.
  - Ümumi yığıncağın funksiyasını ***Governerlər Şurası***, İdarə Heyətinin funksiyasını da ***İcra Direktorları Şurası*** həyata keçirir.
  - Həmçinin beynəlxalq monetar və iqtisadi məsələlərin müzakirə edildiyi bir ***Pul və Maliyyə İşləri Komitəsi*** vardır.
  - ***İcra Direktorları Şurası*** qərarlarını həyata keçirməkdən məsul olan bir ***Direktor*** (managing director) və ***BVF personalı*** da mövcuddur.
  - İcra Direktorları Şurası ***5-i təyin edilmiş*** (ABŞ, Almaniya, Yaponiya, Fransa, İngiltərə) və ***19-u da seçilmiş*** olmaqla 24 üzvdən ibarətdir.
    – Təyin edilmiş üzvlər yalnız öz ölkələrini təmsil edirlər. Seçilmiş üzvlər isə bir qrupu (constituency) təmsil edirlər.
    – Yalnız öz ölkəsini təmsil edən üç seçilmiş üzv vardır: Səudiyyə Ərəbistanı, Rusiya və Çin.

# İQTİSADİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİR EDƏN BEYNƏLXALQ QURUMLAR

- BVF-nun hesablaşma vahidi ***Xüsusi Çəkmə Hüququdur (SDR).***
- Hazırda 1 SDR təxminən 1,54 dollara bərabərdir.
- SDR səbətini təşkil edən valyutalar və səbətdəki payları dollar ifadəsində aşağıdakı kimidir:
  - 1 avro = 0,5520 dollar
  - 1 yapon yeni = 0,1527 dollar
  - 1 İngilis sterlini = 0,1752 dollar
  - 1 USD = 0,6660 dollar
  - 1 SDR = 1,5430 dollar
- BVF hər üzv ölkədə iqtisadi vəziyyətin ***monitorinq***ini aparır və ***konsultasiya*** edir.
  - BVF təsis sazişinin 4-cü maddəsində göstərildiyi kimi bəzi ölkələr üçün ildə 1 dəfə, bəzi ölkələr üçün iki ildə 1 dəfə konsultasiya edilir.
  - "Dünya İqtisadi Mənzərəsi" hesabatı üçün ildə ildə 2 dəfə tədqiqat aparılır.
  - Fond resurslarından istifadə etmədən BVF-nin yaxın monitorinqində olmağı qəbul edən üzv ölkələr üçün ildə bir neçə dəfə xəbərdaredici tədbirlər monitorinqi aparılır.
  - Həmçinin genişləndirilmiş monitorinq və proqram monitorinqi də mövcuddur.

# İQTİSADİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİR EDƏN BEYNƏLXALQ QURUMLAR

– 2008-ci il qlobal böhranından sonra BVF 25 böyük iqtisadiyyatda 5 ildə bir dəfə məcburi ***maliyyə sistemi araşdırması*** aparmağa başlamışdır.
  - 25 ölkə xaricində qalan ölkələrdən də istəyənlərdə BVF könüllü şəkildə eyni araşdırmanı aparır.
  - Bu araşdırmaların məqsədi maliyyə sektorunda çıxan böhranlarla bağlı erkən xəbərdarlıq şəbəkəsi qurmaqdır.

– Normal BVF imkanlarından ***stand-by tənzimləmələri (SBA)*** və ***genişləndirilmiş fond asanlığı tənzimlənməsi (EFF)*** formasında istifadə edilir.
  - ***Stand-by*** üzv ölkədəki tədiyyə balansı problemlərinin həlli üçün nəzərdə tutulan bir dəstəkdir. Bu kreditlər 12-18 ay arasında və 3 ayda bir hissə-hissə verilir. Hər bir hissə ayrılmadan öncə ölkənin tənzimləmədə nəzərdə tutulan performans kriteriyaları, nəzərdə tutulan tədbirlərin alınıb-alınmadığı və qoyulan makroiqtisadi hədəflərə nail olunub-olunmadığı baxımından araşdırılır. Kreditlərin qaytarılması 3-5 il ərzində olur.
  - ***Genişləndirilmiş fond asanlığı***, makroiqtisadi və ya struktur problemlərdən irəli gələn  tədiyyə balansı problemlərinin həlli üçün hazırlanan ortamüddətli proqramları dəstəkləmək məqsədilə 3 illik müddətə verilən kreditdir. Bu da performans kriteriyalarından asılı olaraq hissə-hissə verilir və 4-10 il ərzində geri qaytarılır.

# İQTİSADİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİR EDƏN BEYNƏLXALQ QURUMLAR

- Keçmişdə tətbiq edilən və hazırda tətbiq edilməyən bəzi xüsusi BVF imkanları da olmuşdur.
  - Neft asanlığı, bufer stok asanlığı.
- Bu gün tətbiq edilən xüsusi imkan ***yoxsulluğu aradan qaldırma və iqtisadi artım asanlığı***dır.
- BVF-nin bu gün tətbiq edilən imkanları SBA, ***Çevik Kredit Xətti (FCL)*** və ***Ehtiyat Kredit Xəttidir (PCL)***.
- BVF imkanları ümumi mənada bir borclanma deyildir. Tədiyyə balansı problemi yaşayan bir üzv ölkə öz pulunu verib, əvəzinə pulu güclü olan başqa bir üzv ölkənin pulunu alır və vaxtı çatdıqda bu məbləğ yenidən mübadilə edilir.
- Ona görə də BVF imkanından istifadə edən bir ölkənin başqa bir ölkənin pulunu əldə etməsinə “***purchase***”, qaytarılmasına isə “***repurchase***” adı verilir.

# İQTİSADİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİR EDƏN BEYNƏLXALQ QURUMLAR

- **Dünya Ticarət Təşkilatı**
  - Ölkələr arasında əmtəə və xidmət ticarətinin mümkün olduğu ölçüdə proqnozlaşdırıla bilən, sərbəst və normal ola bilməsi üçün zəruri çərçivəni yaratmaq, qaydaları formalaşdırmaq və tətbiq etmək məqsədilə qurulmuşdur.
  - DTT-nin yaradılması fikri ilk dəfə 1944-cü il Bretton Woods Konfransı zamanı ***Keynes*** tərəfindən irəli sürülmüşdür ("International Trade Organization" adı altında).
  - Ticarətin qlobal qaydalarını formalaşdıran DTT-nin 3 əsas orqanı vardır:
    - ***Nazirlər Konfransı***: ən azı 2 ildən bir toplanan və üzv ölkələrin nazirləri səviyyəsində təmsil olunduqları bir növ qanunverici orqandır.
    - ***Baş Şura***: Gündəlik idarəetmə qərarlarını alan və müntəzəm olaraq toplanan bir növ icra orqanıdır. Üzvləri DTT üzvü olan ölkələrin DTT nəzdindəki səfirləri və ya nümayəndə heyəti rəhbərlərindən ibarətdir. Bununla yanaşı, bəzən üzv ölkələrədn gələn rəsmi nümayəndələr də bu şuranın iclaslarında iştirak edə bilir.
    - ***Baş direktor və ona bağlı olan məmurlar***.
  - Bunlardan başqa 3 mühüm şura da fəaliyyət göstərir: ***Əmtəələr Şurası***, ***Xidmətlər Şurası*** və ***İntellektual Mülkiyyət Hüquqları Şurası***.

# İQTİSADİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİR EDƏN BEYNƏLXALQ QURUMLAR

- **Ölkə qrupları: G-8 və G-20**
  - ***G-8*** iqtisadi baxımdan dünyanın ən zəngin 7 ölkəsinin qlobal sistemin iqtisadi və monetar problemlərini müzakirə etmək və bu məsələlərlə bağlı əməkdaşlıq etmək məqsədilə formalaşdırdıqları qrupdur.
    - “Group of Seven” adının qısaldılmış formasıdır.
    - Grup üzvləri ABŞ, Yaponiya, Almaniya, İngiltərə, Fransa, İtaliya və Kanadadır.
    - İlk dəfə G-6 adı altında 6 üzvlə 1975-ci ildə toplanmış, 1976-cı ildə ***Kanada***nın da qoşulması ilə G-7 olmuş və 1997-ci ildə ***Rusiya***nın da daxil olması ilə adı G-8-ə çevrilmişdir.
    - Bu 8 ölkənin iqtisadiyyat nazirləri və sonra da liderləri ildə 1 və ya 2 dəfə toplanaraq qlobal sistemin iqtisadi və monetar problemləri haqqında fikir mübadiləsi edirlər və həyata keçiriləcək siyasətlər üçün təməllər formalaşdırmağa çalışırlar.
    - Baxmayaraq ki, formalaşdırdıqları siyasətlər bu dövlətlərə aiddir, ancaq qlobal qitisadiyyatın 2/5-ni əhatə etdiklərindən qlobal sistemə bütövlükdə təsir edirlər.

# İQTİSADİ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİR EDƏN BEYNƏLXALQ QURUMLAR

- **G-20** dünyanın 20 böyük iqtisadiyyatının toplandığı qrupdur(Group of Twenty).
  - 19 böyük ölkənin iqtisadiyyatdan məsul nazirləri və ya maliyyə nazirləri ilə mərkəzi bank sədrləri və Avropa İttifaqı Nazirlər Şurasının sədri və Avropa Mərkəzi Bankının sədrindən ibarətdir.
  - G-8 maliyyə nazirlərinin 25 sentyabr 1999-cu ildə Vaşinqtonda keçirilən iclasında G-20-nin qurulmasına qərar verilmişdir.
  - Qrup ilin müəyyən vaxtlarında nazirlər və mərkəzi bank rəhbərləri səviyyəsində toplanır və bu səviyyədə müəyyən edilən məsələlər haqqında qərar alınmasını təmin etmək üçün ilin müəyyən vaxtlarında dövlət rəhbərləri səviyyəsində iclaslar keçirir.
  - Üzvləri bunlardır: ABŞ, Çin, Yaponiya, Almaniya, Fransa, İngiltərə, İtaliya, Kanada, Rusiya, Hindistan, Argentina, Türkiyə, Braziliya, Meksika, Cənubi Afrika, Səudiyyə Ərəbistanı, Cənubi Koreya, Avstraliya, İndoneziya, Avropa İttifaqının rəhbəri və Avropa İttifaqı Mərkəzi Bankının sədri.
  - G-20 iclaslarında alınan qərarlar qlobal sistemin 9/10-nu təşkil edən ölkələr tərəfindən alındığı üçün qlobal sistemə istiqamət verici xarakter daşıyır və ölkələrin iqtisadi siyasətləri baxımındnan da istiqamət vericidir.

# BEYNƏLXALQ QURUMLARIN İQTİSADİ SİYASƏT ÜZƏRİNDƏ TƏSİRLƏRİ

- Əvvəllər BVF başda olmaqla beynəlxalq iqtisadi qurumların dünya üzrə iqtisadi siyasətlərin formalaşmasında mühüm təsirləri var idi.
- 1980-ci illərin ikinci yarısından etibarən bu meyl zəifləməyə başlamışdır.
- İnkişaf etmiş ölkələr öz problemlərini G-8 iclaslarında müzakirəyə çıxarmağa başladıqdan sonra BVF-nin təsiri eyni ilə Dünya Bankında olduğu kimi daha çox inkişaf etməkdə olan ölkələrə yönəlmişdir.
- 2000-ci illərdən etibarən başda Çin və Hindistan olmaqla inkişaf etməkdə olan iqtisadiyyatların getdikcə əhəmiyyət qazanmağa başlaması ilə birlikdə bu iqtisadiyyatları da əhatə edən G-20 qrupu yaradılmışdır və qərar qəbul etmə üstünlüyü bu qrupa keçmişdir.
- Buna baxmayaraq böhran dövrlərində BVF-nun üstünlüyü və təsiri özünü göstərir.

# BEYNƏLXALQ QURUMLARIN İQTİSADİ SİYASƏT ÜZƏRİNDƏ TƏSİRLƏRİ

- Əgər bir ölkə Dünya Bankı ilə birlikdə struktur uyğunlaşdırma və ya sektor uyğunlaşdırma proqramları həyata keçirmişdirsə, onda Dünya Bankının da iqtisadi siyasəti formalaşdırmada təsirləri ortaya çıxacaqdır.
- DTT üzvü ölkələrin hamısı xarici ticarət siyasətlərini DTT qərarları çərçivəsində qururlar.
- Üzv ölkələrdən hər hansı biri iqtisadi problemlə üzləşdikdə BVF-a müraciət edərək ondan dəstək istəyir. BVF bu dəstəyi verərkən həmin ölkə ilə ortaq bir proqram hazırlayır və ölkə öz iqtisadi siyasətini bu proqrama uyğun qurur.
- BVF ilə ortaq proqram həyata keçirən ölkə Dünya Bankının da istiqamətləndirmələrinə açıq olmalıdır.
- BVF ümumi iqtisadi siyasət üzərində söz sahibi olduğu halda, Dünya Bankı sektor məsələləri üzərində yönləndirici təsir göstərir.

# YOXLAMA SUALLARI

1. Beynəlxalq iqtisadi əməkdaşlığın əhəmiyyəti nədir? Bu əməkdaşlığı təmin edən qurumlardan üçünün adını yazın.
2. İnkişaf etmiş iqtisadiyyatlarla olan iqtisadi əlaqələrimiz iqtisadi siyasətimizə necə təsir göstərir?
3. Yüksələn bazar iqtisadiyyatlarına nümunə olacaq beş ölkənin adını yazın. Bunların inkişaf etməkdə olan ölkələrdən əsas fərqi nədir?
4. BVF (IMF) hansı məqsədlə qurulmuşdur?
5. BVF-da kvota nə deməkdir? Bir ölkənin BVF-dakı kvotası necə hesablanır?
6. Sizcə Azərbaycanın BVF ilə bu günə qədərki əməkdaşlığı uğurlu olmuşdurmu? Müzakirə edin.
7. DTT-nin məqsədləri və orqanları haqqında məlumat verin.
8. G-8 hansı məqsədlə qurulmuşdur? Üzvləri hansı ölkələrdir?
9. G-20 hansı məqsədlə qurulmuşdur? Bu məqsədə xidmət etdiyini düşünürsünüzmü? Müzakirə edin.
10. Beynəlxalq iqtisadi qurumların bir ölkənin iqtisadi siyasəti üzərində hansı şəkildə təsiri ola bilər?

# TÖVSİYƏ OLUNAN MƏNBƏLƏR


- Mahfi Eğilmez, Ercan Kumcu, (2014). “Ekonomi Politikası: Teori ve Türkiye Uygulaması”, İstanbul: Remzi Kitabevi, 19. Basım.
- Agnes Benassy-Quere və.b., (2010). “Economic Policy: Theory and Policy”. Oxford University Press.
- Qreqori Mənkyu (2007), “Ekonomiksin əsasları”, Bakı: CBS Polygraphic Production.
- Rasim Həsənov (2009), “İqtisadi siyasət: metodologiya və praktika”, Bakı: “İqtisad Universiteti” nəşriyyatı.